


# POLİS

**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI**






www.pq.mia.gov.az

polisazerbaycan

**9 oktyabr 2025-ci il**
Cümə axşamı

**1933-cü ildən çıxır**
**№ 39 (3751)**


# Türk dünyası ailəmizdir!

**Ölkəmiz daha bir mötəbər beynəlxalq tədbirə - Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşünə evsahibliyi etdi. Qəbələdə keçirilən sammit "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr edilmişdi.**




Türk dövlətlərinə rəhbərlik edən liderlərin arasında olan qardaşlıq və dostluq münasibətləri gün keçdikcə daha da möhkəmlənən türk birliyinin təməl səbəblərindən biridir. Bütün dünya bu qardaşlıq və dostluğa dayanan münasibətlərdən qaynaqlanan türk birliyinin növbəti möhtəşəm təntənəsinə XII Zirvə görüşündə, sözün əsl mənasında, dostluq görüşündə bir daha şahidlik etdi. Toplantıdan əvvəl türkdilli dövlətlərin rəhbərləri ilə Prezident İlham Əliyevin səmimi görüşləri də bunun növbəti təsdiqi oldu.

Təşkilatın lokomotivlərindən olan Azərbaycanın Zəfəri sayəsində qurum çərçivəsində əlaqələr daha da şaxələnib və möhkəmlənib. Ən mühümü isə vaxtilə məngur güclərin planları ilə aralarına sədd çəkilmiş türk dünyası ölkələrinin etno-coğrafiyası bərpa edilib. Bu, kökləri, dili, mədəniyyətləri ilə bir-birlərinə sıx bağlı olan xalqlarımızın adına qazanılan misilsiz qələbə kimi tarixə yazılıb.

> *“Türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir”*

Türk dünyasının birləşdirici gücü kimi Azərbaycanın TDT-nin hərtərəfli inkişafında rolu böyükdür.

## Dövlətimizin başçısı mühüm təşəbbüslərlə çıxış edir

Prezident İlham Əliyevin rəsmi sosial şəbəkə səhifələrində 3 oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşımında “Türk dünyası bizim ailəmizdir!” fikirləri də ölkəmizin türk dünyasının birliyinə verdiyi dəyəri bir daha nümayiş etdirir.

Sözügedən Zirvə Görüşündə sülh və təhlükəsizliyin hər bir ölkənin inkişafı üçün əsas amil olduğunu deyən Prezident İlham Əliyev bildirib:

“Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün “Regional sülh və təhlükəsizlik” mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir”.

Dövlətimizin başçısı TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini də təklif edib: “Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin keçirilməsini təklif edirik”.

Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərlə çıxış edir, yeni əməkdaşlıq sahələri yaradır və ortaq layihələrin maliyyələşdirilməsində, idarə olunmasında fəal iştirak edir. Prezident İlham Əliyevin təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirib. Məhz bu təşəbbüslər nəticəsində TDT formal birlikdən real təsir gücünə malik beynəlxalq təşkilata çevrilib.

Obrazlı ifadə etsək, TDT-nin doğuluş ünvanı olan Azərbaycan təşkilatın möhkəmlənməsi, türkdilli ölkələr arasında əməkdaşlığın daha da inkişafı üçün əməli addımlar atır. Həmçinin qurumun ölkəmizdə keçirilən tədbirləri də hər zaman yüksək təşkilatçılığı, dost və qardaş ölkələrdən gələn əziz qonaqlara göstərilən diqqət və qayğı ilə yadda qalır.

# Nüfuzlu lider, qüdrətli dövlət

## Dünya Prezidentimizi və Azərbaycanımızı belə tanıyır

**Prezident İlham Əliyev son həftələrdə bir neçə beynəlxalq tədbirdə iştirak edib. Dövlətimizin başçısı bu müddətdə Çində Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində, ABŞ-da BMT Baş Assambleyasının 80-ci sessiyasında, Danimarkada "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak edib, müxtəlif görüşlər keçirib. Həmçinin son həftələrdə Birləşmiş Ərəb Əmirlikləri, Ruanda və İtaliyanın prezidentləri respublikamıza səfər ediblər.**

Güclü liderlərin dövlətləri taleyindəki tarixi xidmətləri barədə çoxsaylı misal göstərmək mümkündür. Çağdaş siyasətdə isə bunun ən böyük nümunələrindən biri Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti və ona göstərilən yüksək beynəlxalq ehtiramdır.

Əvvəldə qeyd etdiyimiz və hər biri mühüm siyasi hadisə olan beynəlxalq tədbirlərin ortaya qoyduğu əsas həqiqətlərdən biri Prezident İlham Əliyevin və Azərbaycan dövlətinin qlobal səviyyədə malik olduğu yüksək nüfuzdur. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olmasa da, dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə bu qurumun sammitində iştirak etdi. Habelə Prezident İlham Əliyevin Avropa ölkələri arasında ən yüksək səviyyədə siyasi və strateji müzakirələr üçün yaradılmış əlaqələndirmə platforması olan "Avropa Siyasi Birliyi"nin Zirvə toplantılarında iştirakı hər zaman böyük maraqla izlənilir. Dövlət başçısının regional və qlobal proseslərə baxışı, dünyanı düşündürən aktual məsələlərə dair mövqeyi həmişə diqqət mərkəzində olur. Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə iştirak etdi.

Avropadakı ümumi təhlükəsizlik vəziyyətinin, Rusiya-Ukrayna müharibəsinin, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzuların müzakirə olunduğu Zirvə toplantısında Prezident İlham Əliyev bir neçə dövlət və hökumət başçısı ilə görüşüb. Bu görüşlər əsasən qarşı tərəflərin müraciəti əsasında baş tutub ki, bu da bir daha Azərbaycan Prezidentinin Avropa liderləri arasındakı yüksək nüfuzunun, dövlətimizin başçısına göstərilən böyük hörmətin və xüsusi dəyərin göstəricisidir.

Azərbaycanın etibarlı tərəfdaş kimi tanınmasında, təbii ki, respublikamızın təşəbbüsü ilə reallaşan enerji layihələrini xüsusi qeyd etmək lazımdır. Bu layihələr regionda və Avropada ayrı-ayrı dövlətlərin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, onlar arasındakı siyasi əlaqələri və müxtəlif sahələrdəki əməkdaşlığı da gücləndirir.

Enerji layihələri ilə yanaşı, Azərbaycanın təşəbbüsləri həm də nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi sahəsində regional və beynəlxalq əməkdaşlığı stimullaşdırır. İndiyə qədər respublikamızda həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" marşrutları üzrə çoxsaylı nəqliyyat layihəsi icra olunub. Bu sırada Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsini, logistika imkanlarının genişləndirilməsini də xüsusi vurğulamalıyıq. Azərbaycanın nəqliyyat sferasında layihələri həm də regionda nəqliyyat dəhlizlərinin inkişafını stimullaşdırır.

Təsadüfi deyil ki, Orta dəhlizin qlobal rəqabətdə fərqlənməsi, özünü çevik nəqliyyat marşrutu kimi göstərməsi məhz Azərbaycanın sayəsində mümkün olmuşdur.

# Prezident həmkarını təbrik edib

## Ölkələrimiz arasında əlaqələr müzakirə olunub

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib. Dövlətimizin başçısı həmkarını doğum günü münasibətilə təbrik edib. Vladimir Putin təbriklərə görə təşəkkürünü bildirib. Telefon danışığı zamanı ölkələrimiz arasında əlaqələr də müzakirə olunub.

# Sülhü möhkəmləndirən görüş

## Etimad quruculuğu tədbirləri davam etdiriləcək

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə tərəflər Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Görüşdə təmasların davam etdirilməsi barədə razılığa gəlinib.

# Ukrayna təşəkkür edir

## Azərbaycanın humanitar dəstəyi qeyd olunub

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub. Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olunub. Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Bakıda yeni park açılıb

## Prezident və birinci xanım parkda gəziblər

Oktyabrın 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Nərimanov rayonunda salınan yeni parkın açılışında iştirak ediblər.

Ərazisi 3,5 hektar olan yeni istirahət məkanı Əhməd bəy Ağaoğlu, Təbriz və Tələt Şıxəliyev küçələrinin kəsişməsində, İtaliya-Azərbaycan Universitetinin yaxınlığında yerləşir.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev oktyabrın 4-də 2025–2026-cı tədris ilində ali təhsil müəssisələrinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Dövlət başçısının imzaladığı Sərəncam ümumilikdə 102 tələbəni əhatə edir.*

*“Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu” təsdiq edilib. Prezident İlham Əliyev sentyabrın 30-da bununla bağlı Fərman imzalayıb.*


Gəncədən Xankəndiyədək....................2

Tarixdə adı qalanlar...............................3

Dövlətə sədaqət, xalqa xidmət..............3

Tariximizi öyrənək.................................4

# Respublika Xəbərləri

### Onların əməkhaqları artırılıb

Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqları artırılıb. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, onların tarif (vəzifə) maaşlarına 1,5 – 3 dəfə artım əmsalları tətbiq edilib.

### Üçtərəfli görüş keçiriləcək

Oktyabrın 13-14-də Bakıda Azərbaycan, Rusiya və İran hökumət nümayəndələrinin üçtərəfli görüşü keçiriləcək. Nazirlər Kabinetinin məlumatına görə, üçtərəfli görüşdə nəqliyyat-logistika, energetika və gömrük məsələləri müzakirə olunacaq.

### Qəbələdə Nazirlər Şurası toplanıb

Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının toplantısı keçirilib. Verilən məlumata görə, toplantıda bir sıra vacib sənədlər təsdiq edilib. İclas TDT Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü çərçivəsində baş tutub.

### Gəlirlər proqnozlaşdırılandan çoxdur

Dövlət büdcəsinin gəlirləri proqnozu üstələyib. Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin yanvar-sentyabr ayları ərzində dövlət büdcəsinin gəlirləri 29 milyard 142.4 milyon manat təşkil edib ki, bu da doqquzaylıq proqnozu 675.2 milyon manat və ya 2.4 faiz üstələyib.

### Kəlbəcərin "yaşıl enerjisi"

Kəlbəcərdə yüksək hündürlükdə ilkin gücü 240 MVt olacaq külək elektrik stansiyasının təməli qoyulub. Dəniz səviyyəsindən 3 100 metr yüksəklikdə olan külək elektrik stansiyası gələcəkdə 600 MVt gücə çatmaq potensialına malikdir.

### Cəbrayılda məşğulluq təmin edilir

Cəbrayıl rayonuna köçürülmüş 880-dən çox şəxs məşğulluq tədbirlərinə cəlb edilib. Məlumata görə, indiyə qədər rayonda 811 nəfərin məşğulluğu təmin edilib, onlardan 40 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatlar yaradılıb, 72 sakin isə peşə kurslarına cəlb olunub.

### Azərbaycanda savadlılıq yüksəkdir

UNESCO təhsil sisteminə görə Azərbaycanda savadlılıq 100 faizə yaxındır. Bunu elm və təhsil nazirinin müavini İdris İsayev beynəlxalq forumda deyib. Onun sözlərinə görə, indiyədək qəbul edilən sənədlərdə təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər görülür.

### Qrip əleyhinə vaksinasiya başlayıb

Oktyabrın 8-dən etibarən Azərbaycanda vaksinasiyaya başlanılıb. Qripə qarşı vaksinasiya ödənişsizdir və yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrində aparılır.

### Yarım ton narkotik

Xəzər dənizi vasitəsilə İrandan Azərbaycana 510 kiloqram narkotik keçirilməsinin qarşısı alınıb. Dövlət Sərhəd Xidmətindən bildirilib ki, mütəşəkkil cinayətkar qrupun üzvləri - İran vətəndaşları Atacani Tahir Xaləd, Məxtumi Sadiq Ərazqurban və Qangerme Omid Çalce saxlanılıb.

### Turniri 12 medalla başa vurublar

III MDB Oyunları çərçivəsində güllə və stend atıcılığı üzrə yarışlara yekun vurulub. İdmançılarımız turnirdə 7 gümüş və 5 bürünc medal qazanıblar. Yarışlarda fəxri kürsüyə qalxanlar sırasında stend atıcılarımız M.Novruzlu, N.Bədəlli, D.Ulanova, C.Həsənov və N.Səfərova, güllə atıcılarımız X.Əliyeva və V.Kalmıkov da vardır.

### Şəhid ailələri unudulmur

Postmüharibə dövründə şəhid ailəsinin üzvü və müharibə iştirakçısı olan 27 min 800 nəfər məşğulluq tədbirlərinə cəlb edilib. Məlumata görə, onlardan 13 min 300-ü üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslər qurulub, 13 min 200-ü isə münasib işlə təmin edilib. 1300 şəxs üçün isə peşələr üzrə hazırlıq kursları təşkil olunub.

# Gəncədən Xankəndiyədək...

## III MDB Oyunları təhlükəsiz şəraitdə başa çatdı

**Azərbaycan III MDB Oyunları ilə bir daha göstərdi ki, beynəlxalq səviyyəli tədbirləri tam təhlükəsiz şəraitdə keçirmək bacarığına malikdir. Ölkənin yeddi şəhərində – Gəncə, Mingəçevir, Qəbələ, Şəki, Göygöl, Yevlax və xüsusilə Xankəndidə təşkil olunan yarışlar ilk növbədə, təbii ki, idmanımız üçün, daha sonra isə təhlükəsizliyimiz adına əlamətdar hadisə oldu.**

Oyunların əksər yarışlarının, həm açılış, həm də bağlanış mərasimlərinin Gəncədə keçirilməsi paytaxt Bakıdan sonra ikinci bu böyük şəhərimizin müasir infrastrukturuna, etibarlı ictimai təhlükəsizlik mühitinə diqqət çəkdi. Gəncədən başlayan tədbirlər silsiləsinin Xankəndiyədək uzanması isə daxili işlər orqanlarının eyni anda koordinasiyalı xidmət təşkil etmək bacarığını gözlər önünə sərdi, örnək yaratdı.

> *"Yarışların keçirildiyi müddətdə ən kiçik insident belə qeydə alınmadı"*

Yarışların Xankəndidə keçirilməsinin dərin məna daşıyan tarixi hadisə olduğunu məxsusi olaraq vurğulamalıyıq. Çünki bir vaxtlar separatizmdən əziyyət çəkən, təhlükənin kölgəsində yaşayan bu şəhərdə antiterror tədbirindən sonra növbəti dəfə sülhün, sabitliyin və normal həyatın təntənəsi yaşandı. Və bütün bunlar, təbii ki, Azərbaycan daxili işlər orqanlarının fədakar xidməti, yüksək peşəkarlığının nəticəsində mümkün oldu.

### Xankəndi artıq sülhün və təhlükəsizliyin ünvanıdır

Bəli, Xankəndi artıq Azərbaycanın ümumi təhlükəsizlik çətiri altında, dövlətin qanun və qaydalarının bərqərar olduğu bir şəhərdir. Bu bölgədə separatizm və qarşıdurma yerini tamamilə sülhə, əməkdaşlığa və ictimai asayişə verib, oyunlar da bunun ən real sübutlarından biri oldu. Yarışların insidentsiz və tam təhlükəsiz şəraitdə başa çatması göstərdi ki, artıq burada həyat öz normal axarına qayıdıb.

Xankəndi Polis Şöbəsinin rəisi, polis polkovniki Zaur Nəsirov qəzetimizə bildirib ki, təsdiq edilmiş tədbirlər planına uyğun olaraq bütün qurumları arasında bütün təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təmin edildi:

"Təhlükəsizliyin qorunmasına cəlb edilən daxili işlər orqanlarının bütün qurumları arasında güclü koordinasiya yaradılmışdı. Yarışların keçirildiyi müddətdə ən kiçik insident qeydə alınmadı. İstər idmançılar, istər tamaşaçılarla bağlı xoşagəlməz hadisə yaşanmadı. Hətta itən əşyalarla bağlı müraciətlər olmadı və ya hər hansı narazılıq belə baş vermədi."

Polis polkovnikinin sözlərinə görə, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən əvvəlcədən verilən tapşırıqlara uyğun olaraq əməkdaşların fiziki və peşə hazırlıq səviyyəsi artırılmış, xarici dil bilikləri təkmilləşdirilmiş, xidmət heyəti hazır vəziyyətə gətirilmişdi.

Bu planlı hazırlıq nəticəsində DİN əməkdaşları yarışların bütün günlərində gücləndirilmiş iş rejimində çalışaraq təhlükəsizliyi tam şəkildə təmin etdilər.

### Koordinasiya və əsl peşəkarlıq sərgiləndi

Yarışlar zamanı DİN-in bütün strukturları arasında sarsılmaz və operativ əlaqənin qurulması xidmətin təşkilində mükəmməl koordinasiyadan, əsl peşəkarlıqdan xəbər verirdi. Şəhərin əsas küçə və prospektlərində, idman obyektlərinin ətrafında ictimai asayişin qorunması üçün fasiləsiz xidmət təşkil edilmişdi. Xüsusilə nəqliyyatın tənzimlənməsi, izdihamın idarə olunması, fövqəladə hallara hazırlıq tədbirləri polis tərəfindən yüksək məsuliyyətlə həyata keçirilirdi. Yol polisi əməkdaşları fasiləsiz xidmət apararaq nəqliyyat axınını tənzimləyir, hər kəsin sərbəst və təhlükəsiz hərəkətini təmin edirdilər.

Bununla bərabər, polis əməkdaşları yalnız qanun keşikçisi kimi deyil, həm də qonaqpərvərliyin simvolu kimi çıxış edirdilər. Yerli və xarici idmançılar, qonaqlar, media nümayəndələri qarşılanır, onlar üçün təhlükəsiz, rahat və nizamlı şərait yaradılırdı.

Polisin xidmətində logistika və texniki təminata xüsusilə toxunmalıyıq. Çünki təhlükəsizliyin etibarlı təminatını yalnız sağlam, texniki təminatı yüksək səviyyədə həll edilən və ruh yüksəkliyinə sahib şəxsi heyət həyata keçirə bilər.

Beləliklə, qeyd etməliyik ki, yarışların keçirildiyi günlərdə xidmətə cəlb edilən əməkdaşların qidalanması, istirahəti və texniki təminatı da DİN Maddi-Texniki Təminat Baş İdarəsi tərəfindən yüksək səviyyədə təşkil edilmişdi.

İdarənin rəis müavini polis polkovniki Zahid Sarıyevin sözlərinə görə, xidmətə cəlb edilən əməkdaşlar yatacaq yerləri, geyimlərlə təmin edilmişdi. Qida məhsulları hər gün laborator nəzarətdən keçirilir, sağlamlıq üçün təhlükəsizliyi yoxlanılırdı. Xidmətə cəlb edilən hər bir polis əməkdaşına və hərbi qulluqçuya gündə üç dəfə keyfiyyətli qida verilirdi.

Bu tədbirlər polis əməkdaşlarına verilən dəyərin bariz göstəricisi idi və bir daha sübut olundu ki, DİN öz əməkdaşlarının qayğısına qalır, rifahına böyük önəm verir.

Yeddi şəhərdə keçirilən oyunların, 13 ölkədən gələn 1600-dən çox idmançının, 2300-dən artıq nümayəndənin qatıldığı mötəbər yarışların nizamlı keçməsi Azərbaycanın istənilən bölgəsində sabitlik və təhlükəsizliyin təmin olunduğunu bir daha sübut edir. Hətta yaxın tarixdə işğaldan azad edilmiş ərazilərdə də beynəlxalq tədbirlər keçirmək potensialına, gücünə sahibik. Bu reallıq ölkəmizin beynəlxalq imicinə yeni bir uğur səhifəsi əlavə etdi.

### İdman, sülh və təhlükəsizlik bir arada

Əgər əvvəlki illərdə beynəlxalq yarışlar əsasən Bakıda keçirilirdisə, III MDB Oyunları ilk dəfə regionlara yayıldı. Bu, həm polisin idarəetmə sistemində yeni təcrübə, həm də daxili işlər orqanları üçün sınaq idi. Nəticə isə gözlənildiyi kimi yüksək oldu, heç bir insident, təhlükə və ya qanun-qayda pozuntusu qeydə alınmadı. Bu vəziyyət bir tərəfdən daxili işlər orqanlarının peşəkarlığının, daha geniş mənada isə dövlətin sabitlik siyasətinin bariz təzahürüdür.

Sonda Xankəndi faktoruna bir daha qayıtmaq istəyirik. Çünki bu əzəli və əbədi şəhərimizdə belə mötəbər tədbirlərin keçirilməsi, obrazlı desək, "sabitlik qələbəsi"dir. Burada hər bir polis əməkdaşı təkcə asayişin deyil, həm də Azərbaycanın dövlət suverenliyinin keşikçisi kimi çıxış edir. Bunun arxasında minlərlə polis əməkdaşının, Daxili Qoşunların hərbi qulluqçularının fədakar əməyi dayanır, şübhəsiz ki. Onların sayəsində Azərbaycan dünyaya təkrar-təkrar göstərir ki, təhlükəsizliyimiz bizim milli kimliyimizin ayrılmaz hissəsidir!










*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Tarixdə adı qalanlar

## Onlar tarixin, torpağın yaddaşında əbədi qalacaqlar

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan paytaxtın Nəsimi rayon sakinləri-xüsusi təyinatlı qüvvələr mənsubu baş leytenant Abdullayev İbrahim Habil oğlunun, leytenant Əliyev İmran Əli oğlunun, DİN daxili Qoşunlarının hərbi qulluqçusu, gizir Həsənov Faiq Hüseyn oğlunun və əsgər Məmmədov Vüqar Elxan oğlunun xatirələri anılıb.**

Hərbi Memorial Məzarlıqda şəhidlərin xatirələri anılıb, qəbirlərinə tər gül dəstələri düzülüb. Tədbirdə Müdafiə Nazirliyinin, Nəsimi rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidlərin ailə üzvləri, yaxınları, xidmət etdikləri hərbi hissələrin və ictimaiyyətin nümayəndələri, Nəsimi RPİ-nin əməkdaşları, o cümlədən Vətən müharibəsi iştirakçıları və qazilələri iştirak ediblər.

Şəhidlərimizin qəbri üstünə Nəsimi RPİ-nin əməkdaşları xatirə çələngləri qoyublar.

Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndəsi çıxış edərək, şəhidlərin valideynlərinə səbir diləyib, belə vətənpərvər, mərd, şücaətli oğullar boya-başa çatdırdıqlarına görə onlara minnətdarlığını bildirib.

Nəsimi Rayon Polis İdarəsinin rəisi polis polkovniki Vüqar Ağayev tariximizə qızıl hərflərlə yazılan Qələbənin əldə olunmasında canından keçən bütün qəhrəman oğullarımızın əziz xatirəsinin əbədi yaşayacağını qeyd edib. Onların ömür və şərəfli döyüş yolunun gələcək nəsillərə nümunə olduğunu, xalqımızın mərd və qəhrəman oğulları ilə fəxr etdiyini vurğulayıb. Rəis şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğıdan bəhs edərək, Nəsimi rayonunda da hər bir şəhid ailəsinin və müharibə iştirakçısının probleminə həssaslıqla yanaşıldığını diqqətə çatdırıb.



Sonra çıxış edənlər Azərbaycan Silahlı Qüvvələrinin möhtəşəm Zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsinin başlanmasından, hərbçilərimizin dünya hərb tarixinə həkk olunan misilsiz döyüş qabiliyyəti nümayiş etdirməsindən danışaraq, ölkəmizin bölgədə davamlı sülhün daim tərəfdarı olduğunu vurğulayıblar.

Qeyd edək ki, şəhid baş leytenant İbrahim Abdullayev Murovdağ yüksəkliyi və Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə vuruşub, düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Qarabağ" ordeni, "Vətən uğrunda" , "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid leytenant İmran Əliyev Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Azərbaycan Prezidenti İlham Əliyevin 15 və 29 dekabr 2020-ci il tarixli sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

DİN DQ-nin şəhid gizir Faiq Həsənov oktyabrın 5-də Füzuli döyüşləri zamanı şəhid olub. Azərbaycan Prezidenti İlham Əliyevin 15 və 24 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Ordumuzun əsgəri şəhid Vüqar Məmmədov 30.09.2020-ci ildə Füzuli rayonu Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin 15 və 25 dekabr 2020-ci il tarixli sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Dövlətə sədaqət, xalqa xidmət

## Gənc əməkdaşların ideoloji hazırlığına xüsusi diqqət yetirilir

**Daxili İşlər Nazirliyində ideoloji tərbiyə işinin sistemli təşkili gənc əməkdaşların peşəkarlığının, intizamının və dövlətçilik ruhunun möhkəmləndirilməsinə yönəlib. Dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət daxili işlər orqanlarında bu baxımdan prioritet istiqamətlərdən biridir.**

Mövzu ilə bağlı qəzetimizə danışan Daxili İşlər Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsinin rəis müavini polis polkovniki Anar Alışzadə bildirib ki, şəxsi heyətin xidməti intizamının artırılması, gənc əməkdaşların diqqət və qayğı ilə əhatə olunması, onların ideoloji hazırlığının və innovativ təfəkkürünün inkişaf etdirilməsi DİN rəhbərliyinin daim diqqət mərkəzində saxlanılır.

Bu istiqamətdə aparılan məqsədyönlü tədbirlər nəticəsində yalnız bu ilin doqquz ayı ərzində daxili işlər orqanlarında 9-u virtual, 59-u canlı olmaqla ümumilikdə 68 seminar keçirilib. Görüşlərdə əsasən gənc əməkdaşlar iştirak edib. İdeoloji işin planlı şəkildə təşkili məqsədilə hazırlanmış plan-cədvəl əsasında respublikanın bütün şəhər və rayon polis idarələrində, həmçinin regional mühafizə şöbələrində şəxsi heyətlə seminar-məşğələlər keçirilir.

Seminarların məruzəçilərindən biri olan İdarənin şöbə rəisi polis polkovnik-leytenantı Firdovsi Nəsirov da deyib ki, tədbirlər baş inspektorlar və təcrübəli əməkdaşlar tərəfindən aparılır. Görüşlərdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun tapşırıqları, Nazirliyin müvafiq qərar və əmrləri barədə geniş məlumat verilir.

Bundan əlavə, seminar iştirakçılarına ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin formalaşmasındakı



tarixi xidmətləri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazanılmış Zəfərin əhəmiyyəti, lokal antiterror tədbirləri və Böyük Qayıdış proqramı çərçivəsində görülən işlər barədə məlumatlar verilir.

Seminarlarda əməkdaşların diqqətinə çatdırılır ki, etik davranış kodeksinə riayət etsinlər, sosial şəbəkələrdən istifadə zamanı qanun pozuntularına yol verməsinlər. Məruzəçilər dinləyicilərə xəbərdarlıq edirlər ki, xidməti otaqlardan, silah və xüsusi vasitələrdən görüntülərin paylaşılması, polis və ya mülki geyimdə foto və videoların yerləşdirilməsi, sosial mediada canlı yayımların aparılması, eləcə də qeyri-etik rəy və şərhlərin yazılması daxili işlər orqanlarından xaric edilmə də daxil olmaqla ciddi intizam məsuliyyəti yarada bilər.

Neqativ hallar təkcə xidmətdə deyil, ailə mühitində də mənfi nəticələr doğurur. Bu baxımdan polis əməkdaşlarının konfidensiallıq prinsiplərinə riayət etməsi, borc öhdəliklərindən və mərc oyunlarından, etik davranış normalarına zidd hərəkətlərdən çəkinməsi, vətəndaşlarla münasibətlərdə nümunəvi mövqe sərgiləməsi tələb olunur. Daxili işlər orqanlarında gənclərin xidmətə və təhsilə təşviqi istiqamətində də tədbirlər keçirdiklərini deyən şöbə rəisi Firdovsi Nəsirovun sözlərinə görə, görüşlərdə Polis Akademiyası və Daxili Qoşunların Ali Hərbi İnstitutu barədə ətraflı məlumatlar təqdim olunur, videoçarxlar nümayiş etdirilir, tədris imkanlarını əks etdirən bukletlər paylanır. Bu prosesə yerli polis orqanlarının şəxsi heyətlə iş üzrə rəis köməkçiləri və kadr şöbələrinin əməkdaşları da cəlb olunur.

Yekun olaraq qeyd etmək olar ki, mütəmadi keçirilən seminar və görüşlər əməkdaşların peşəkar hazırlığının yüksəldilməsinə, milli-vətənpərvərlik ruhunun möhkəmlənməsinə və cəmiyyətə nümunə olan polis obrazının formalaşmasına xidmət edir. Bu istiqamətdə aparılan ardıcıl fəaliyyət, şübhəsiz ki, daxili işlər orqanlarında nizam-intizamın möhkəmlənməsinə, ictimai təhlükəsizliyin və asayişin qorunmasında peşəkarlığın artmasına mühüm töhfə verir.

# Fəaliyyətimiz diqqət mərkəzindədir

## Ötən ay DİN-in sosial şəbəkələrdəki səhifələrinə 3589 müraciət daxil olub

Ötən ay sentyabr ayının 1-dən 30-dək DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 3589 müraciət daxil olub. Hər biri cavablandırılan müraciətlərin 954-ü (268-i təşəkkür məktubu) qeydiyyata alınması və aidiyyəti üzrə yönləndirilməsi üçün DİN-in Katibliyinə təqdim edilib.

Onlardan 966-sı cinayətkarlıqla mübarizə, 1329-u qanunvericilik və digər məsələlərə dair, 517-si əməkdaşların fəaliyyətinin qanunauyğunluğu, 366-sı Dövlət Yol Polisinin fəaliyyəti, 146-sı ictimai təhlükəsizlik, 170-i vakansiyalar və təhsil məqsədi ilə, 95-i istintaq və təhqiqat qurumlarının fəaliyyəti ilə əlaqəli olub.

# "Açıq qapı" gələcəyə açılır

## Yaradılan şərait arzuların reallaşmasının təməlidir

Sağlam düşüncəli və yüksək intellektli gənclərin ixtisas seçimində Polis Akademiyasına üstünlük verməsinin təmin edilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

Bu dəfə Polis Akademiyasının "Açıq qapı"sından Bakı şəhəri-





nin Xəzər rayonunda yerləşən 183 nömrəli tam orta məktəbin şagirdləri keçiblər.

Şagirdlər Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, idman meydançaları və zalları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, kursant yeməkxanası, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar.

Qonaqlara Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və Akademiyada təhsilin üstünlükləri barədə geniş məlumat verilib, həmçinin rəsmi saytda yerləşdirilmiş "Virtual Akademiya" platformasından istifadə edərək təhsil müəssisəsi ilə onlayn tanış olmaq imkanı da onların nəzərlərinə çatdırılıb.

# Beynəlxalq elmi konfrans keçirilib

## Təhlükəsizlik və cinayətkarlıqla mübarizə prioritetdir

Bu günlərdə Bolqarıstanın Burqas şəhərində keçirilən "Təhlükəsizlik və cinayətkarlıqla mübarizə: hüquq-mühafizə sahəsində yeni meyillər" adlı beynəlxalq elmi konfransda Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Cinayət prosesi kafedrasının müəllimi polis baş leytenantı Xalid Qasımov iştirak edib.

Konfransda hüquq-mühafizə orqanlarının fəaliyyəti, cinayətkarlıqla mübarizədə qarşıya çıxan çağırışlar, habelə müasir texnologiyaların, xüsusilə süni intellekt və rəqəmsal innovasiyaların tətbiqi ilə bağlı aktual məsələlərin müzakirəsinə geniş yer ayrılıb.

Tədbirdə həmkarımızın "Süni intellekt modellərinin müasir cinayətlərin istintaqında rolu və gələcək perspektivləri" adlı məqaləsi maraqla qarşılanıb. Məqalədə süni intellekt texnologiyalarının istintaq prosesinə inteqrasiyası, onların verdiyi imkanlar, hüquqi çərçivələr və



tətbiq potensialı təhlil olunub.

Qeyd edək ki, sözügedən konfrans hüquq-mühafizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübələrin bölüşdürülməsi və innovativ yanaşmaların tətbiqi baxımından əhəmiyyətli platforma rolunu oynayır.

# DİN-in əməkdaşları da təlimə qatılıb

## Uşaqları zərərli informasiyadan qoruyaq

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın müvafiq bəndlərinə əsasən, uşaqların zərərli informasiyadan qorunması istiqamətində tədbirlərin gücləndirilməsi məqsədilə təlimlərə başlanılıb.

Təlimlər uşaq hüquqları və informasiya məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən dövlət və qeyri-dövlət orqanlarının əməkdaşları, ümumtəhsil müəssisələrinin psixoloqları, eləcə də yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorlar üçün təşkil olunur.

Oktyabrın 6-dan 9-dək keçirilən təlim proqramı beynəlxalq ekspert, professor Sofia Kiladze tərəfindən aparılıb.

Təlimlərdə uşaqların zərərli informasiyadan qorunması sahəsində Azərbaycan Respublikasında mövcud qanunvericilik bazası, bu sahədə beynəlxalq təcrübədə tətbiq olunan normativ-hüquqi sənədlər, informasiya məhsullarının yaş kateqoriyaları və təsnifatı, həmçinin müəllim və valideynlərlə işin təşkili kimi mövzular üzrə təqdimatlar keçirilib.

Qeyd edək ki, 4 gün davam edən və ümumilikdə 120 nəfər iştirak etdiyi təlim proqramının sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.

Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb.














Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən , Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qarantı var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq.

Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var. Oktyabr ayı da müharibədə mühüm hərbi nailiyyətlərlə yadda qalıb.

Belə ki, **oktyabrın 1-də** Azərbaycan Ordusu tərəfindən işğal altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilmişdir.

**Oktyabrın 2-də** Ağdərə istiqamətində Madagiz ətrafındakı hakim yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir. Saat 00:00-dan 07:00-dək Ermənistan ordusunun 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilmişdir.

**Oktyabrın 3-də** Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Madagizi işğaldan azad etdiyini və həmin ərazilərdə Azərbaycan bayrağının qaldırıldığını açıqlamışdır. Həmçinin İlham Əliyevin verdiyi qərara əsasən, Madagizin tarixi adı olan Suqovuşan adı bərpa edilmişdir.

Azərbaycan Ordusu həmin gün ərzində həmçinin Tərtər rayonunun Talış, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzulinin isə Aşağı Əbdürrəhmanlı kəndini tamamilə işğaldan azad etmişdir. Azərbaycan Müdafiə Nazirliyi verdiyi məlumata əsasən, Madagiz-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilmiş, 3 tankı isə qənimət götürülmüşdür. Həmçinin Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilmişdir.

**Oktyabrın 4-də** saat 11:40 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Gəncəyə dörd yeni raket atılmışdır. İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan tam azad etdiyini açıqlamışdır. Saat 18:00 radələrində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancıldığı xəbəri verilmişdir. Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülmüşdür. İlham Əliyev xalqa müraciətində Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad və Horovlu kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Saat 22:00 radələrində Ermənistan silahlı qüvvələri Mingəçevir şəhərinə raket hücumu etmişdir.

**Oktyabrın 5-də** Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Şıxalıağalı, Sarıcallı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi işğaldan tam azad etdiyini açıqlamışdır. Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 3 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılmış, bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də Azərbaycan Ordusunun sərrast atəşi ilə məhv edilmişdir.

**Oktyabrın 6-da** Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə almaqla kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirən düşmənin terror cəhdinin qarşısı ordumuz tərəfindən qətiyyətlə alınmışdır.

Həmin gün düşmənə endirilən artilleriya zərbələri nəticəsində 5-ci alayın müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılmışdır. Artilleriya zərbəsi ilə düşmənin müdafiə sahəsində 1 ədəd tankı və 3 topu məhv edilmişdir.

**Oktyabrın 7-də** Azərbaycan Ordusunun atəşi nəticəsində düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilmişdir.

**Oktyabrın 8-də** Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Oğuz rayonunun Xaçmaz kəndi sahəsində uçuş keçirməyə cəhd göstərərkən məhv edilmişdir. Azərbaycan Ordusu tərəfindən Ermənistan ordusunun 8-ci əlahiddə motoatıcı briqadasının döyüş bayrağı ələ keçirilmişdir.

**Oktyabrın 9-da** ordumuz tərəfindən həyata keçirilən hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılmışdır. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanmış, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilmişdir. Həmin gün ərzində və gecə ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilmiş və sıradan çıxarılmışdır. Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilmişdir.

Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun xeyli sayda BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilmişdir. Prezident İlham Əliyev xalqa müraciətində Xocavənd rayonunun Sor kəndi və Hadrut qəsəbəsinin, Tərtər rayonunun Çaylı kəndi, Cəbrayıl rayonunun Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı, Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. 27 sentyabr tarixindən oktyabrın 9-dək Ermənistan ordusuna məxsus 16 komanda məntəqəsi, 196 tank, 38 BM-21 "Qrad", 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu – onlardan 8-i 2S3 "Akasiya", 2-si "Qvozdika", 36 piyadanın döyüş maşını, 24 artilleriya batareyası, 2 "REM" və ya hava hücumundan müdafiə vasitəsi, 2 ədəd S-300 kompleksinin buraxıcı qurğusu, 25 "Osa" zenit raket kompeksi, 2 "Kub" zenit raket kompeksi, 4 "Repelent" radio-texniki manea vasitəsi, 136 top, 56 minaatan, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 2 ədəd radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni məhv edilmişdir. Həmçinin 18 tank, 4 top, 22 piyadanın döyüş maşını, 12 minaatan, 4 "UAZ" maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 "ZİL" maşını, 9 "QAZ" maşını hərbi qənimət kimi ələ keçirilmişdir.

*(Ardı gələn sayımızda)*

# Tariximizi öyrənək

## Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi Bakıda yaranıb

1901-ci il oktyabrın 7-də böyük xeyriyyəçi Zeynalabdin Tağıyevin təşəbbüsü və bir neçə il davam edən səyləri nəticəsində Bakıda müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi fəaliyyətə başladı.

"Tağıyevin məktəbi" kimi tanınan bu təhsil ocağı ilk qığılcım kimi cəmiyyətimizin maarif və təhsil sahəsində canlanma yaratdı. Bu məktəbin məzunları daha sonra Azərbaycan xalqının həyatında böyük rol oynayıb, onun maarifçiliyinə töhfə verdilər.

Məktəbi bitirən Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova, Bakıda "Qadın Xeyriyyə Cəmiyyəti"ni yaradan Liza Muxtarova, Züleyxa Vəliyeva və onlarla qız sonradan Azərbaycanın tərəqqisində yaxından iştirak edib, cümhuriyyət fəallarına çevrildilər.

Cəmiyyətimizin təhsil və maarifçilik tarixində dönüş nöqtəsi olan qızlar məktəbi illər keçsə də xatırlanacaq, nəsildən-nəslə əvəzsiz nümunə kimi yad ediləcəkdir.

# Siqaret kötüyü "şahidlik" etdi...

## Qatil bir qərinədən sonra tapıldı

1985-ci ilin yayında ABŞ-ın Florida ştatının kiçik şəhərlərindən birində dəhşətli bir cinayət baş verdi. Gecənin sakitliyini pozan bu hadisə, qurbanın həyatını qəsdən əlindən almaqla yanaşı, cəmiyyətə də böyük sarsıntı yaşatdı. Cinayət yerində kiçik olsa da polis üçün qiymətli olan siqaret kötüyü tapıldı. Lakin həmin vaxtın məhdud texnoloji imkanları, xüsusilə də DNT analizinin inkişaf mərhələsində olması, polisə bu qiymətli sübutu tam mənada istifadə etməyə imkan vermədi.




O dövrdə cinayətlərin açılmasında əsasən barmaq izləri, şahid ifadələri və fiziki sübutlar istifadə olunurdu. Təəssüflər olsun ki, siqaret kötüyündəki DNT nümunəsi qan izləri kimi çox sadə bir sübut olaraq saxlanıldı və uzun illər unudulmağa doğru sürükləndi. Qatil isə gizlənməyi bacardı və cəmiyyətin diqqətindən kənarda qaldı.

Hüquq-mühafizə orqanları cinayəti açmaq üçün çox cəhd etdilər, ancaq elmi texnologiya inkişaf etmədiyindən bu mümkün olmadı. İllər keçdikcə cinayət soyuq işlər siyahısına daxil oldu və zamanla unuduldu. Lakin...

Molekulyar biologiya və genetik analiz metodlarının inkişafı, xüsusilə kriminal DNT nümunələrinin təhlili, ailə ağacları və geniş genetik məlumat bazalarının yaradılması kriminalistikaya yeni bir nəfəs gətirdi. Bu elmi nailiyyətlərdən yararlanan Florida polisinin tədqiqatçıları 1985-ci ildə götürülmüş siqaret kötüyündəki DNT nümunəsini yenidən analiz etdilər.

Yeni texnologiyalar sayəsində, o zaman mümkün olmayan "genetik genealogiya" metodu tətbiq edildi. Bu metodla, qatilin genetik izləri ictimai DNT bazalarında olan insanlarla müqayisə edildi. Beləliklə, polis tədricən qatili müəyyənləşdirən genetik əlaqələr tapdı. Bu, illərlə davam edən gizliliyi pozdu və 35 ildən sonra uzun müddət sükutda qalan qətlin çözülməsinə, qatilin tapılmasına səbəb oldu.

Tapılan məlumatlar sayəsində şübhəli şəxs müəyyən edildi. Uzun illər gizlənən qatili həbs etmək üçün xüsusi əməliyyat planlaşdırıldı və nəhayət, o, 2020-ci ildə ədalət qarşısına çıxarıldı. Bu hadisə hüquq-mühafizə orqanları üçün əsl inqilab oldu, çünki 30 ildən çox davam edən soyuq cinayət elmi metodlarla açılmışdı.

Florida ştatının polislərinin bu uğurlu işi, yalnız qurbanlar üçün deyil, həm də kriminalistlər və hüquq mühafizəçiləri üçün böyük ümid yaratdı. Bu işin nəticələri göstərdi ki, texnologiyanın, elmin inkişafının ədalətin bərpa olunmasında faydası danılmazdır.

Beləliklə, siqaret kötüyündəki kiçik DNT izi, illərlə unudulmuş sirri açaraq, qatilin üzünü dünyaya göstərdi və yeni cinayətlərin qarşısını almaqda böyük rol oynadı. Bu hadisə göstərir ki, hətta ən kiçik sübut belə, müasir texnologiya ilə birləşdikdə, qaranlıqda qalmış həqiqətləri işıqlandıra bilər.

*Aytən Tahirova*
*polis kapitanı*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik